# ABDULLA ŞAİQIN 140 İLLİK YUBİLEYİ İLƏ BAĞLI "ARAZDAN TURANA" ADLI KONFRANS KEÇİRİLDİ

18 mart 2021-ci il tarixdə Azərbaycan ədəbiyyatının klassiki, böyük maarifçi və ictimai-siyasi xadim Abdulla Şaiqin 140 illik yubileyinə həsr edilmiş "Arazdan Turana" adlı virtual konfrans keçirildi.

Tədbirin aparıcısı – Milli Məclisin Mədəniyyət Komitəsinin eksperti, Beynəlxalq "ALAŞ" ədəbi Mükafatı laureatı Əkbər Qoşalı bildirdi ki, ideya müəllifi Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva olan konfrans, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Milli Məclisin Mədəniyyət Komitəsi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan Yazıçılar Birliyi, eləcə də, ortaq türk qurumları – Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı ilə keçirilir. Konfransın təşkilinə Abdulla Şaiqin Mənzil-Muzeyi, "Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu" İB, "Regional Hüquqi və İqtisadi Maarifləndirmə" İB, Türk Ədəbiyyatı Vəqfi, Dünya Gənc Türk Yazarlar Birliyi və ADPU Quba filialı dəstək verib.

Konfransda Azərbaycan Respublikasının Mədəniyyət naziri Anar Kərimov, MM Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva, Millət vəkili, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli, Xalq yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri ANAR, Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Darhan Kıdırali, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRKSOY Baş katibinin müavini dos.dr. Bilal Çakıcı, Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi dos.dr Ülkər Talıbzadə, Regional Hüquqi və İqtisadi Maarifləndirmə İctimai Birliyinin nümayəndəsi Arzu Bağırova, "Türk Ocaqları" İstanbul şöbəsinin başqanı dr. Cezmi Bayram, Azərbaycan "Türk Ocaqları" başqanı dr. Akif Aşırlı, ADPU Quba filialının direktoru dos.dr. Yusif Alı Afşar salamlama nitqi ilə çıxış etdi. Konfransda Abdulla Şaiqin çoxşaxəli yardıcı fəaliyyətinin müxtəlif istiqamətləri ilə bağlı maraqlı məruzələr təqdim edildi: "Abdulla Şaiq. Həyatı. Yaradıcılığı" (filologiya elmləri doktoru Cavanşir Yusifli), "Abdulla Şaiq və türkçülük" (filologiya üzrə fəlsəfə doktoru, dosent Təranə Turan Rəhimli), "Abdulla Şaiq – ədəbiyyatşünas" (filologiya üzrə fəlsəfə doktoru Arzu Hacıyeva), "Abdulla Şaiq və teatr" (tarix elmləri doktoru Minaxanım Əsədova), "Abdulla Şaiqin uşaq yaradıcılığı" (filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı), "Abdulla Şaiqin pedaqoji fəaliyyəti" (pedaqoji elmlər doktoru, professor Fərrux Rüstəmov). Əməkdar artist Azad Şükürov Abdulla Şaiqin məşhur "Arazda Turana" əsərini səsləndirdi.



Çıxışlarda Abdulla Şaiq yaradıcılığının bugünümüz – yeni nəsillər üçün aktuallığı, türk kimliyi, milli şüur baxımından, eləcə də, maarifçilik, uşaqların düzgün tərbiyələndirilməsi kimi məsələlərdə yenə Abdulla Şaiq yaradıcılığına müraciət edildiyi məmnuniyyətlə vurğulandı.

Martın 18-nin hər il Çanaqqala Şəhidlərini Anma Günü olaraq qeyd edildiyi xatırladıldı, qardaş ölkənin və Azərbaycanın şəhidlərinin timsalında türk dünyası şəhidlərinin ruhu ehtiramla yad edildi.

Abdulla Şaiqin Əhməd Cavadla "Türk Ocaqları"nın Azərbaycan bölməsini yaratdığının xüsusi vurğulandığı konfransda o da qeyd olundu ki, bu gün də hamımız üçün doğma Türk Ocaqları həm Türkiyədə, həm də Azərbaycanda fəaliyyət göstərir.

Hələ uşaqılqdan adını bütün azərbaycanlıların əzbər bildiyi, uşaqlarçün şeirlərinin sevə-sevə öyrəndiyimiz maarifpərvər ədibin 140 illik yubiley konfransının il içində Türkiyədə də keçiriləcəyi, habelə, onun seçilmiş əsərlərinin Azərbaycanda və

Türkiyədə çap ediləcəyi deyildi. Həmin kitab Abdulla Şaiqin 140 illiyinə və məktəblilərə, müəllimlərə, maarifçilərə bir töhfə kimi düşünülür.

Sonda MM Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva və Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru Ülkər Talıbzadə təşkilatçılara və iştirakçılara təşəkkür etdi. Komitə sədri bildirdi ki, növbəti belə konfrans qüdrətli söz ustadı Aşıq Ələsgərin 200 illik yubileyi münasibəti ilə Azərbaycanın əlaqədar dövlət və ictimai qurumlarının və ortaq türk qurumlarının iştirakı ilə düzənlənəcək.